# "Bakı-2015" ilk Avropa Oyunları idmançılarımızın növbəti qələbələri üçün zəmin yaratdı

***Azərbaycan Prezidenti İlham Əliyev "XXXI Yay Olimpiya Oyunlarına hazırlıq haqqında" 12 avqust 2015-ci il tarixli Sərəncam imzalamışdır***

Məlum olduğu kimi, 2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində növbəti – XXXI Yay Olimpiya Oyunları keçiriləcəkdir. Azərbaycan idmançıları əvvəllərdə olduğu kimi, gələn il də bu oyunlarda təmsil olunacaqlar. Bəs idmançılarımız bu yarışlara hansı səviyyədə qoşulacaqlar?

Sualımızın cavabı isə dövlət başçımızın bu günlərdə imzaladığı müvafiq Sərəncamda öz əksini tapmışdır. Belə ki, Sərəncamda bildirilir ki, 2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərindəki növbəti XXXI Yay Olimpiya Oyunlarına hazırlıq Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və müvafiq idman federasiyaları tərəfindən milli komandaların formalaşdırılması istiqamətində mərhələli şəkildə həyata keçirilir. Azərbaycanın Milli Olimpiya komandasının XXXI Yay Olimpiya Oyunlarına mütəşəkkil hazırlanmasının lazımi səviyyədə təmin olunması məqsədilə Gənclər və İdman Nazirliyinin və Milli Olimpiya Komitəsinin təqdim etdiyi xüsusi proqramlara əsasən milli yığma komandaların XXXI Yay Olimpiya Oyunlarına hazırlığı mərhələsində təlim-məşq toplantılarının keçirilməsi, idmançıların rəsmi beynəlxalq yarışlarda iştirakı, ölkədə lisenziya yarışlarının təşkili, Azərbaycan nümayəndə heyətinin Olimpiya Oyunlarında iştirakı və digər tədbirlərin həyata keçirilməsi ilə bağlı Nazirlər Kabinetinə tapşırıq verilmişdir.

Bu bir həqiqətdir ki, bu gün Azərbaycan idman dövləti kimi tanınır. Müstəqil Azərbaycanın idman dövləti kimi böyük nüfuz qazanması təsadüfi deyil.

Əlbəttə, idmançılarımızın son illərdə beynəlxalq idman arenalarında, xüsusən də olimpiya oyunlarında uğurlu nəticələri idmanımızın yüksək inkişaf mərhələsində olduğunu sübut edən mükəmməl dəlildir. Bütün sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idman sahəsində də böyük və fundamental müvəffəqiyyətlər ümummilli lider Heydər Əliyevin ikinci dəfə respublikamıza rəhbərlik etdiyi dövrə təsadüf edir. Təkcə onu demək yetər ki, müstəqilliyin ilk illərində idmanda yaranmış boşluq və geriləmə 1994-cü ildən etibarən aradan qaldırılmağa başlandı. 1995-ci ildə Azərbaycanda idman fondunu təsis etmədə ümummilli lider Heydər Əliyev həmçinin Prezident Fondundan sağlam həyat tərzinin təbliğ edilməsinə, uşaq və yeniyetmələrin idmana cəlb edilməsinə marağın artırılmasına, bir sözlə, idmanın inkişafını əhatə edən hər bir sahəyə əsaslı vəsait ayırdı və beləliklə, böyük uğurların təməli qoyuldu.

Azərbaycan Prezidenti İlham Əliyevin 4 mart 2015-ci il tarixli Sərəncamına əsasən bu gün qürurla Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd etdiyimiz tarixi günə səbəb olmuş, 1995-ci ilin 5 mart günü Bakı İdman Sarayında idman ictimaiyyəti ilə keçirilən görüş, heç şübhəsiz böyük tarixin başlanğıc anı sayılır. 1997-ci ildə qəbul edilmiş "Bədən tərbiyəsi və idman haqqında" qanun uzun müddət mövcud olmuş bir sıra boşluqların aradan qaldırılması baxımından həlledici sənəd oldu. Bu qanun 2009-cu il iyunun 30-da yenilənmiş variantda qəbul edilərək ölkədə bu sahəni tənzimləyən əsas hüquqi bazaya çevrildi.

1997-ci ildə ölkənin idman ictimaiyyətinin aparıcı və fəal qüvvəsinin dəvəti ilə Milli Olimpiya Komitəsinin prezidenti seçilmiş cənab İlham Əliyevin də bu istiqamətdə ulu öndərə verdiyi dəstəyi unutmamalıyıq. MOK prezidenti seçildiyi ilk günlərdən İlham Əliyev idmanın bütün potensialını səfərbər edib düzgün istiqamətə yönəltmək, ölkənin idman qurumları arasında sıx əməkdaşlıq yaratmaq, onların vahid proqram əsasında Azərbaycanda bu sahənin tərəqqisinə xidmət etməsi yönümündə işə başladı. Məhz bunlar ölkə idmanının, olimpiya hərəkatının beynəlxalq miqyasda nüfuz qazanmasına real imkanlar açdı. İdmançılarla şəxsi görüşlər, problemləri ilə maraqlanmaq onların yüksək məqsədlər uğrunda mübarizə əzmini artırdı, hər birini yarışlara daha məsuliyyətlə hazırlaşmağa sövq etdi.

"İndi dünyada ölkəni, xalqı idman qədər başqa heç nə tanıda bilmir", ulu öndər Heydər Əliyevin bu sözləri indi də zamanın nəbzini müəyyən edir. Əlbəttə, bir prezidentin, bir də idmançının qələbəsi şərəfinə yüksələn bayraq və səslənən himnin gördüyü təbliğat işinin



gənc, öz həqiqətlərini dünyaya çatdırmaq istəyən bir dövlət üçün rolu əvəzsiz və danılmazdır.

İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi də ön plana çəkildi. Bakıda və bölgələrdə olimpiya idman komplekslərinin tikintisinə start verildi. Hazırda onların sayı 50-yə yaxındır. 2003-cü ilin oktyabrından prezidentlik fəaliyyətinə başlayan cənab İlham Əliyev ulu öndərin idman sahəsində başladığı strategiyanı uğurla davam etdirdi.

Görülən işlərin böyük bəhrəsini ölkəmiz 2000-ci ildə gördü. 1996-cı ildə Atlanta Yay Olimpiya Oyunlarında 23 iştirakçıdan ibarət komandamızın nailiyyəti bir gümüş medal idisə, 4 il sonra Sidneydə 31 idmançıdan ibarət heyət 2 qızıl və 1 bürünc medal əldə etməklə ölkəmizə qızıl sətirli ilk tarixi zəfərləri gətirdi. Olimpiyadanın sonrakı illərindəki uğurlarına da diqqət yetirsək, görərik ki, nailiyyətlər artım tempində öz əksini tapıb. Afinada (2004-cü il, Yunanıstan) komandamız 38 idmançı ilə təmsil olunub, biri qızıl olmaqla 5, Pekində (2008-ci il, Çin) 44 iştirakçı ilə yenə biri ən yüksək əyarlı olmaqla 7 medal qazanmışdır.

2012-ci il London Yay Olimpiya Oyunları bu sahədə xüsusi yer tutur. Azərbaycan idmançıları rekord sayda – 2-si qızıl, 2-si gümüş və 6-sı bürünc olmaqla 10 medal qazandılar. Olimpiya komandamız bu göstərici ilə 205 ölkə arasında 30-cu yeri tutdu. Millimiz Avropa ölkələri sırasında 15-ci, MDB dövlətləri arasında 5-ci, müsəlman ölkələri arasında 3-cü yerdə qərarlaşdı.

Azərbaycan idmançıları ən böyük uğura 2015-ci ilin iyun ayında imza atdılar. "Bakı -2015" ilk Avropa Oyunları ilə Azərbaycan tarixə daha bir ilkin adını yazdı. 12-28 iyun 2015-ci il. Cəmi 17 günlük təqvimlə tarixə düşən I Avropa Oyunları arxada qalsa da, hələ də xoş təəssüratla xatırlanır. 24 ildir müstəqillik dövrünü yaşayan gənc respublikamız bir daha sübut etdi ki, o təkcə enerji resursları deyil, həm də yüksək təşkilatçılığa, mədəniyyətə, qonaqpərvərliyə malik olmaqla, idman dövlətidir.

İlk Avropa Oyunlarında dünyanın 50 ölkəsindən 6 mindən çox atlet iştirak etdi. 17 gün ərzində 20 idman növü üzrə, o cümlədən 16 olimpiya (badminton, boks, güləş, su idman növləri, voleybol, velosiped idmanı, gimnastika, kanal və baydarkada avarçəkmə, cüdo, yüngül atletika, stolüstü tennis, kamandan oxatma, atıcılıq, triatlon, taekvondo və qılıncoynatma) və dörd qeyri-olimpiya növündə (3*3 basketbol, karate, çimərlik futbolu və sambo) mübarizə aparıldı. Bu yarışda dünyanın 50 ölkəsindən 42-si medal qazandı, 27 ölkə qızıl medala sahib oldu. Sevindirici haldır ki, 291 atletlə təmsil olunan Azərbaycan yığma komandası 56 medal əldə etməklə 50 ölkə arasında Rusiya Federasiyasından sonra ikinci oldu. Bundan 21-i qızıl, 15-i gümüş, 20-si bürüncdür. Əlbəttə, dövlətimizin rəhbəri, MOK prezidenti cənab İlham Əliyevin idmançılara göstərdiyi diqqət və qayğının müqabilində əldə edilən nəticələr məntiqidir. Qeyd edək ki, istər ilk Avropa Oyunlarına hazırlıq prosesinin uğurla aparılmasında, istərsə də idmançılarımızın yüksək nəticələrə nail olmasında Təşkilat Komitəsinin rəhbəri, birinci xanım Mehriban Əliyevanın xüsusi əməyi vardır.

İyunun 29-da birinci Avropa Oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri, Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri və Oyunların təşkilində xidmətləri olan xarici vətəndaşlarla görüş keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva iştirak etdilər. Prezident İlham Əliyev bütün idmançılara, onların məşqçilərinə, Oyunların təşkilində iştirak edən insanlara təbriklərini çatdırdı və onlara yüksək mükafatlar təqdim etdi. Mərasimdə nitq söyləyən dövlət başçımız dedi: "Əlbəttə, bu gün mən idmançıların uğurlarını, qələbələrini xüsusi qeyd etmək istəyirəm. Təbii ki, biz bu Oyunları yüksək səviyyədə keçirməli idik və keçirdik. Bu, bir daha ölkəmizin potensialını, gücünü göstərdi. Biz bu potensialı, əlbəttə ki, bilirdik. Bu potensialı biz yaratmışıq. Cəmi 24 il ərzində Azərbaycan elə zirvələrə qalxıb ki, bəzi ölkələrə bu səviyyəyə qalxmaq üçün bəlkə yüzilliklər lazımdır. Bu Oyunlar sadəcə olaraq bizə imkan verdi ki, bu potensialı dünyaya, Avropaya, eləcə də öz ictimaiyyətimizə nümayiş etdirək. Həm insani potensial, həm dövlətimizin iqtisadi potensialı, həm cəmiyyətdə hökm sürən xoş əhval-ruhiyyə, xalqla iqtidar arasında birlik, milli ideyalar ətrafında birləşməyimiz, milli həmrəylik – məhz budur bizim uğurlarımızın əsas şərtləri".

Onu da qeyd edək ki, ilk Avropa Oyunlarında ayrı-ayrı idman növlərində qalib gələnlərə 2016-cı ildə Rio-de Janeyroda (Braziliya) Yay Olimpiya Oyunlarında iştirak etmək hüququ verildi. Hələ bu yarışın başlanmasına qarşıda bir il vaxt var. Bu müddətdə oyunlara lisenziya verən bir çox dünya, Avropa və digər mötəbər yarışlar keçiriləcəkdir. Azərbaycan idmançıları 2016-cı il Yay Olimpiya Oyunlarında daha çox lisenziya qazanmağa çalışacaqlar. Ölkə rəhbərinin bununla bağlı imzaladığı Sərəncam Azərbaycan Milli komandasını Rio-de Janeyro Yay Olimpiya Oyunlarına hazırlığı yüksək səviyyədə aparmağa xidmət edir. Məqsəd indidən 2012-ci il London Yay Olimpiya Oyunlarındakından (10 medal – 2 qızıl, 2 gümüş, 6 bürünc) daha çox medala sahib olmaqdır. Əminliklə vurğulamaq lazımdır ki, Azərbaycan idmançıları bu məqsədlərinə çatmaqla yeni zirvələr fəth edəcəklər.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**